# Beynəlxalq Sülh Günündə Ermənistanın yeni təxribatı

***Bu gün tərəqqipərvər bəşəriyyət dünyada Beynəlxalq Sülh Gününü qeyd edir. Bu günün bütün dünya xalqları tərəfindən qeyd edilməsi barədə qərar 30 noyabr 1981-ci ildə BMT Baş Assambleyasının 36-cı sessiyasında qəbul olunub. Əvvəlcə həmin gün sentyabrın üçüncü çərşənbə axşamı – BMT Baş Assambleyasının illik sessiyasının açılışı günü bayram edilməyə başlayıb.***




21 sentyabrın Beynəlxalq Sülh Günü kimi qeyd edilməsi barədə qərar isə 28 sentyabr 2001-ci ildə Baş Assambleyanın 55-ci sessiyasında qəbul olunub. BMT Baş Assambleyası 21 sentyabrı bütün dünyada zorakılıqdan imtina və atəşkəs günü olaraq elan edib. Bütün ölkələrə həmin gündə hərbi əməliyyatları dayandırmaq təklif olunub. Hər il sentyabrın 21-də ənənəvi olaraq Sülh zənginin yanında bu günlə bağlı müxtəlif tədbirlər keçirilir. BMT-nin Baş katibi burada dünya xalqlarına müraciət edir, sonra zəngi çalır. Bundan sonra bir dəqiqəlik sükut elan olunur və ardınca Təhlükəsizlik Şurasının sədri çıxış edir.

2020-ci ildə bəşəriyyət bir daha əmin oldu ki, insanlar bir-birinə düşmən deyillər. Bizim ümumi düşmənimiz sağlamlığımızı, təhlükəsizliyimizi və həyat tərzimizi təhdid edən dəhşətli koronavirusdur. COVID–19 pandemiyası bizə bir daha xatırlatdı ki, dünyanın bir tərəfində baş verənlər o biri tərəfində də insanlara ciddi zərər vura bilir. Ona görə də BMT-nin Baş katibi Antonio Quterreş dünyadakı bütün münaqişə tərəflərinə müraciət edərək Sülh Günündə silahları yerə qoymağa və güclərini qlobal bəla olan pandemiyaya qarşı yönəltməyə çağırdı.

Amma, təxminən, 30 ildən bəri Azərbaycan ərazilərinin böyük bir hissəsini işğal altında saxlayan, BMT Təhlükəsizlik Şurasının bu işğal faktlarının aradan qaldırılması ilə bağlı qəbul etdiyi 4 qətnaməni indiyədək yerinə yetirməyən Ermənistan, məhz, sentyabrın 21-də – Beynəlxalq Sülh Günündə Azərbaycanla sərhəddə yeni təxribat törətməkdən çəkinmədi və nəticədə bir hərbçimiz həlak oldu. Azərbaycan Müdafiə Nazirliyinin bununla bağlı yaydığı məlumatda bildirilir ki, Ermənistan–Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində düşmənin növbəti təxribatı nəticəsində Azərbaycan Ordusunun kiçik çavuşu, üç oğul atası Elşən Əli oğlu Məmmədov şəhid olub.

21 sentyabr Beynəlxalq Sülh Günü ilə bağlı Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması da bəyanat yayıb. Bu sənəddə də təəssüf hissi ilə qeyd edilir ki, Ermənistan belə əlamətdar bir gündə də bütün beynəlxalq ictimaiyyətin və nüfuzlu təşkilatların ziddinə olaraq, nəinki silahı yerə qoymur, hətta insan qanı tökməkdən də çəkinmir. Bəyanatda bildirilir ki, bu gün BMT tərəfindən 1981-ci ildə dünyada sülh və birlik ideallarını gücləndirmək üçün Beynəlxalq Sülh Günü kimi təsis edilib. Təəssüflər olsun ki, COVID–19 pandemiyası səbəbindən artan qlobal təlatümlər fonunda bu dəyərləri gücləndirmək əvəzinə, onsuz da zəifləmiş beynəlxalq təhlükəsizliyi təhdid altına alan sülh defisitinin şahidi oluruq. BMT Baş Katibinin qlobal atəşkəs çağırışı etdiyi, dünyanın dörd bir tərəfində müharibə edən tərəfləri vahid düşmənə – koronavirusa qarşı birlikdə mübarizə aparmağa, silahlarını yerə qoymağa səslədiyi bir vaxtda Ermənistan bu çağırışa məhəl qoymadan öz işğalçı planlarını həyata keçirmək cəhdlərini davam etdirir.

İcma daha sonra xatırladır ki, bu il iyulun 12-də, məhz pandemiya dövründə Ermənistan həyati əhəmiyyətli kommunikasiya xətlərinin keçdiyi yeni Azərbaycan ərazilərini ələ keçirmək üçün hücuma başlamışdı. Bu, son 30 ildə Ermənistanın Azərbaycana qarşı bitməyən təcavüzünün davamı idi. 1988-ci ildən başlayan bu təcavüz nəticəsində Azərbaycan ərazilərinin beşdə biri Ermənistanın işğalı altındadır və bir milyona yaxın yurdlarından didərgin salınmış azərbaycanlı əhali öz əzəli torpaqlarına, ata-baba yurdlarına geri dönə bilmir.

Hazırda isə təcavüzkar Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində möhkəmlənmək üçün qanunsuz yaşayış məskənləri salır. Beynəlxalq hüquq normalarını saya salmayan bu ölkə, hətta, bu yaxınlarda Beyrut limanında baş verən dəhşətli partlayışdan belə öz mənfur əməllərini həyata keçirmək üçün sui-istifadə edərək, qatı terrorçu dəstələrinin erməni ailələri adı altında Livandan işğal olunmuş Azərbaycan ərazilərinə köçürülməsinə başlayıb. Bu cəhdlər beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması, çox ciddi müharibə cinayətləridir.

Ermənistanın baş nazirinin həyat yoldaşı Anna Akopyan isə bir yandan riyakarcasına sülh çağırışları edir, digər tərəfdən işğal olunmuş Azərbaycan ərazilərində erməni qadınları üçün hərbi təlim keçir. Belə bir sual doğur: Ermənistanın "sülhsevər" baş nazirinin "sülhsevər" xanımı başqa bir ölkənin ərazisində hərbi forma geyinərək, o ölkənin xalqına silah yönəltsəydi, Avropa ölkələri susardımı?!

Bir daha qeyd etməliyik ki, Ermənistan Beynəlxalq Sülh Günündə də Azərbaycan ərazisində qan tökdü. Bu ölkənin beynəlxalq qayda-qanunlara hörmətsiz yanaşdığı bir daha təsdiq olundu. Axı daha nələr baş verməlidir ki, BMT, ATƏT, onun Minsk qrupu bu ölkəyə qarşı layiq olduğu tədbirləri görsün?! Bu ölkəyə siyasi, iqtisadi sanksiyalar tətbiq olunmalıdır. Əks halda, regional təhlükəsizliyi qoruyub saxlamaq mümkün olmayacaq.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***